AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRİ

# ƏMR

№ 416

Bakı şəhəri "23" 11 2017 il

## "Sənətkar" jurnalının adının dəyişdirilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli, 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" ilə peşə təhsili və təlimi sisteminin fəaliyyətinə dair müasir informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsi, bu sahədə olan yeniliklərin kütləvi informasiya vasitələri yolu ilə ictimaiyyətə çatdırılması və peşə təhsili sisteminin ictimai statusunun yüksəldilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrasının təmin olunması məqsədilə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5 bəndini əsas tutaraq

**əmr edirəm:**

1. "Sənətkar" jurnalının adı dəyişdirilərək "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal adlandırılsın.
2. "Peşə təhsili və insan kapitalı" jurnalının redaksiya heyətinin sədri Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru, i.e.d., prof. F.Mustafayev təyin edilsin.
3. F.Mustafayevə tapşırılsın ki, jurnalın yeni redaksiya heyətinin tərkibini bir ay müddətində təsdiq üçün təqdim etsin.
4. Baş redaktor Ş.Balakişiyevə tapşırılsın ki, jurnalın yeni adının qeydiyyatı ilə bağlı qanunvericiliyin tələblərindən irəli gələn bütün zəruri tədbirlərin icrasını, jurnalın

strukturunun və dizaynının yenilənməsini, dövri elmi nəşrlər qarşısında qoyulan müasir tələblərə tam uyğunlaşdırılmasını təmin etsin.

5. Hüquq şöbəsi (S.Kazımov) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyun tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi üzrə tədbirlərin görülməsini və müvafiq qərar layihəsinin hazırlanmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini M.Eynullayevə həvalə edilsin.

Əsas: nazirin müşaviri H.Əliyevin xidməti məlumatı.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ İNFORMASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

**Mikayıl Cabbarov**